# Albert Aqarunovun abidəsinin açılışı oldu

Noyabrın 15-də Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunovun şərəfinə ucaldılan abidənin açılış mərasimi keçirildi.

Açılış mərasimində Albert Aqarunovun ailə üzvləri, Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov, Müdafiə nazirinin müavini Kərim Vəliyev, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev, Dağ Yəhudiləri Dini İcmasının sədri Milix Yevdayev, İsrailin Azərbaycandakı səfiri, Milli Məclisin deputatları iştirak ediblər.

Tədbirdə giriş nitqi ilə çıxış edən polkovnik Abdulla Qurbani bildirdi ki, Albert Aqarunov 25 aprel 1969-cu ildə Bakının Əmircan qəsəbəsində, yəhudi ailəsində anadan olub. Qarabağ müharibəsi başlayarkən 1992-ci ildə könüllü olaraq cəbhəyə yollanıb. Tank komandiri təyin edilən Albert Aqarunov Şuşa cəbhəsində döyüşüb. O, Xankəndi, Daşaltı, Cəmilli istiqamətində gedən döyüşlərdə erməni işğalçılarının xeyli canlı qüvvəsini, zirehli texnikasını, eyni zamanda, ermənilərin Şuşaya hücumu vaxtı düşmənin 9 tank, 7 ZTR və bir çox texnikasını məhv edib.




Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov bildirdi ki, bugünkü tədbir Azərbaycan dövlətinin və xalqının Milli Qəhrəmanına münasibətinin təzahürüdür. Milli Qəhrəmanın şərəfinə heykəl qoyulması İsrail və Azərbaycan xalqları arasında möhkəm dostluğun nümunəsidir. Albert Aqarunov başqa millətin nümayəndəsi kimi Şuşa uğrunda döyüşərək həlak oldu, xalqının, doğulduğu torpağın adını ucaltdı. Dünyaya tanıtdı ki, Azərbaycan torpağı necə igidlər yetişdirən diyardır". Tolerantlıq Azərbaycan xalqının və Azərbaycanda yaşayan bütün xalqların həyat tərzidir. Bu gün Azərbaycanda hökm sürən tolerantlıq dünyanın heç bir ölkəsində yoxdur. Belə bir mehriban ailənin bünövrəsi ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub". Bu gün də Azərbaycan dövləti öz vətəndaşını qorumaq, davamlı sabitliyi təmin etmək üçün multikulturalizm siyasətinə böyük önəm verir. Azərbaycan dünyada çox az ölkələrdəndir ki, burada bütün dinlərə mənsub insanlar rahat yaşayırlar. Azərbaycan dövlətinin həyata keçirdiyi tolerantlıq siyasəti ölkəmizdə yaşayan etnik və dini icmalar arasında dostluğun və qardaşlığın daha da möhkəmlənməsinə zəmin yaradır.




Yəhudilər ölkəmizdə uzun əsrlər boyu digər xalqların nümayəndələri ilə çiyin-çiyinə yaşayırlar. Dağ yəhudiləri azərbaycanlıların sevincinə və kədərinə şərik çıxırlar. Azsaylı xalqın nümayəndələri Azərbaycan cəmiyyətinin həyat və fəaliyyətinin bütün sahələrində dərin iz qoymuşlar. Azərbaycanın ərazi bütövlüyü təhlükə altında olanda da onlar kənarda qalmamışlar.

Müdafiə nazirinin müavini Kərim Vəliyev çıxış edərək bildirdi ki, Azərbaycan bu torpaqda yaşayan bütün millətlərin Vətənidir. Azərbaycanın böyüklüyü, gücü də məhz bundadır. Albert Aqarunov Azərbaycanın Milli Qəhrəmanıdır, bu Vətənin övladıdır. Ona abidə ucaldılması çox müsbət haldır. Azərbaycanın ərazi bütövlüyü uğrunda öz canından keçmiş şəhid ailələrinə, həmçinin müharibə əlillərinə dövlət tərəfindən böyük diqqət və qayğı göstərilir. Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, ölkədə həyata keçirilən siyasətin mərkəzində məhz Azərbaycan vətəndaşı dayanır. Dövlət başçısının müəyyənləşdirdiyi bu strateji kursa uyğun olaraq reallaşdırılan məqsədyönlü dövlət siyasəti ona istiqamətləndirilib ki, ölkənin dinamik iqtisadi inkişafından əhalinin bütün təbəqələri, ələlxüsus da xüsusi qayğıya ehtiyacı olan insanlar bəhrələnə bilsinlər. Azərbaycanda cəmiyyətin ayrı-ayrı təbəqələri arasında ədalətli resurs bölgüsünü təmin etmək məqsədilə müxtəlif tədbirlər həyata keçirilir və beləliklə, dövlət qayğısına ehtiyacı olan bütün vətəndaşlar dövlət tərəfindən dəstəklənirlər.

Milli Qəhrəmanın qardaşı Rantik Aqarunov tədbirin təşkilatçılarına təşəkkürünü bildirdi: "Azərbaycan torpaqlarının müdafiəsi uğrunda canını qurban vermiş qəhrəmana şəhərin görkəmli yerində möhtəşəm abidə ucaldılmasını ailəmiz çox yüksək dəyərləndirir. Vətən uğrunda şəhid olmuş qəhrəmanların adının əbədiləşdirilməsi ailələrinə təsəlli olmaqla yanaşı, həm də gənc nəslin vətənpərvərlik ruhunu yüksəltməyə xidmət edir."

Sonda tədbir iştirakçıları abidənin önünə tər çiçəklər düzərək öz ehtiramlarını ifadə etdilər.

✍ **Şəmsiyyə Əliqızı,**
***"İki sahil"***